


# POLİS

**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI**

www.pq.mia.gov.az

polisazerbaycan

15 may 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 18 (3730)


# Qurulan, dirçələn Qarabağ

**Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə hər bir səfəri Böyük Qayıdışın tezliklə uğurla başa çatacağına əminlik yaradır.**




Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ərəfəsində dövlət başçısı İlham Əliyevin Şuşaya, Xocalıya, Ağdama səfəri yeni infrastruktur obyektlərinin açılışı və təməlqoyma mərasimləri, yeni evlərin açarlarının təqdim edilməsi ilə yadda qaldı.

Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşa rayonunun Daşaltı kənd məscidinin, Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışında, Şuşada inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində

> *Bu gün azad Qarabağda sizin qarşınızda çıxış etmək böyük xoşbəxtlikdir*

iştirak ediblər. Prezident İlham Əliyev, həmçinin, mayın 9-da "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin, "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksinin açılış mərasimlərində iştirak edib.

İşğaldan azad edilmiş ərazilərə səfər mayın 10-da Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin, Ağdam rayonunun Kəngərli kəndinin birinci mərhələsinin, kənd tam orta məktəbinin binasının, körpələr evi-uşaq bağçasının açılışı, kənddə yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada, klub-icma mərkəzində, kənddə yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanışlıqla davam etdi.

## Azad olunmuş ərazilərdə yeni tarix yazılır

Ağdam Muğam Mərkəzinin açılışında çıxış edərkən "Bu gün azad Qarabağda sizin qarşınızda çıxış etmək böyük xoşbəxtlikdir", - deyən Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara növbəti səfəri ölkəmizin bu bölgələrdə həyata keçirdiyi genişmiqyaslı bərpa və quruculuq işlərinin ardıcıl, planlı şəkildə davam etdirdiyini bir daha nümayiş etdirdi.

Dövlətimizin başçısı qeyd edib ki, İkinci Qarabağ müharibəsindən keçən dörd il yarım ərzində quruculuq işləri göz qabağındadır. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq, bərpa işləri aparılır. Ağdam rayonunun Kəngərli kəndinə köçən sakinlərlə görüşündə isə dövlət başçısı qeyd edib ki, bu, kəndin bərpasının, yenidən qurulmasının birinci mərhələsidir. 292 ev sakinlərin ixtiyarına verilir. İkinci mərhələdə daha çox evlər tikiləcək. İndi bəzi torpaqlarda artıq minatəmizləmə işləri başa çatıb, sakinlərə torpaq sahələri də veriləcək.

Bir sözlə, bu səfər yalnız görülən işlərə baxış xarakteri daşımadı, həm də dövlət başçısının rəhbərliyi ilə bölgədə aparılan böyük yenidənqurma prosesinə verilən yüksək siyasi iradənin, xalqla birbaşa təmasın və praktiki nəzarəti təzahür etdirdi. Bir daha göstərdi ki, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuq prosesi strateji xətt kimi formalaşıb.

Azərbaycan tarixinin ən ağır səhifələrindən biri olan Xocalı da dirçəlir. Xocalı artıq yalnız kədərin deyil, həm də ümidin, dirçəlişin və ləyaqətli həyatın şəhəridir. Artıq insanların doğma yurdlarına qayıdışı ilə həmin torpaqlar yenidən canlanır.

# Beynəlxalq sərgi

## Prezident pavilyonlara baxıb

Mayın 13-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXX Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" və XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri ilə tanış olub. Bakı Ekspo Mərkəzinin bütün pavilyonlarını, həmçinin açıq sahəsini əhatə edən və mayın 16-da başa çatacaq "InterFood Azerbaijan" və "Caspian Agro" sərgilərində 31 ölkədən 450 şirkət iştirak edir. Sərgidə ABŞ, Çin, Qazaxıstan, Özbəkistan, Rusiya, Türkiyə və digər ölkələrin aparıcı kənd təsərrüfatı istehsalçıları məhsullarını nümayiş etdirirlər.

Dövlətimizin başçısı İtaliyanın, Gürcüstanın stendi ilə tanış olub, sərgilərin açıq hissəsində nümayiş etdirilən texnika və pavilyonlara baxıb.

# Qardaş təbriki

## "Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram"

Prezident İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib.

Dövlətimizin başçısı X sosial şəbəkə hesabında bununla bağlı etdiyi paylaşımda bildirib: "Başda əziz Qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm".

# Güclənən müttəfiqlik

## Dövlət başçısı naziri qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güleri qəbul edib.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirilib, əlaqələrimizin daha da güclənməsində iki ölkənin dövlət başçıları arasında sıx münasibətlərin rolu vurğulanıb. Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Türkiyənin milli müdafiə naziri qardaş Azərbaycanın Silahlı Qüvvələri ilə əlaqələri genişləndirmək üçün gələcəkdə də əllərindən gələni edəcəklərini deyib.

# Zəngəzurdan keçən Orta Dəhliz

## Prezidentin irəli sürdüyü layihələr reallığa çevrilir

**Çinin "Bir kəmər, bir yol" layihəsinin transkontinental mahiyyətə malik iqtisadi marşrut olacağı gözlənilir. Hazırda bu layihəyə 150 dövlət qoşulub ki, bu da Çindən başqa dünya əhalisinin 65 faizinin yaşadığı bir coğrafiyanı əhatə edir.**

Ekspertlər bildirirlər ki, Azərbaycan özünün nəqliyyat infrastrukturu və tranzit imkanları ilə qlobal əhəmiyyətə malik bu layihənin mərkəzində yer alıb. Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünə Prezident İlham Əliyevin irəli sürdüyü Orta və Zəngəzur dəhlizləri layihələri ilə qoşulub. Bakı - Tbilisi - Qars dəmir yolu və Bakı Beynəlxalq Ticarət Limanları artıq Çindən Avropaya yük daşımalarında fəal iştirak edir.

Azərbaycan dəmir yolları ilə ötən il Orta Dəhlizlə 4,1 milyon ton yük daşınıb. 2030-cu ilə kimi isə Orta Dəhlizlə yükdaşımaların



həcmi 10 milyon tona çatacaq.

Prezident İlham Əliyevin bu il aprelin 4-də Çinə dövlət səfəri zamanı iki ölkə arasında "Bir kəmər, bir yol" təşəbbüsünün birgə təşviqi üzrə Əməkdaşlıq planının və Beynəlxalq multimodal daşımalar haqqında sazişin imzalanması da təsadüfi xarakter daşımır.

Çin öz təşəbbüsünü reallaşdırmaqda Azərbaycana, Orta Dəhlizə və gələcəkdə fəaliyyətə başlayacaq Zəngəzur Dəhlizinə ehtiyacının olacağını bilir.

Azərbaycan Çin ilə nəqliyyat-logistikaya dair qlobal təşəbbüslər müstəvisində sıx əməkdaşlıq qurub. Hər iki dövlət "Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırıb.

### Yükdaşıma imkanlarının artacağı proqnozlaşdırılır

Çinin Avropa ilə ticarət əlaqələrini Azərbaycan üzərindən həyata keçirməyə çalışması təkcə ölkəmizin coğrafi mövqeyindən ibarət deyil. Azərbaycan 15 milyon ton yükaşırma imkanı olan beynəlxalq dəniz limanına və ildə 5 milyon ton yükdaşıma imkanı olan Bakı–Tbilisi-Qars (BTQ) dəmir yoluna malikdir. Bu infrastrukturlar Orta Dəhlizin əsasını təşkil edir. Bu il BTQ-də genişləndirmə işlərinin başa çatacağı nəzərdə tutulur. Dəmir yolunun Gürcüstandan keçən hissəsində genişləndirmə işləri yekunlaşandan sonra yolun yükdaşıma imkanının10 milyon tona çatacağı da gözlənilir.

Orta Dəhliz marşrutunun sürətli inkişafı istiqamətində Azərbaycan mühüm addımlar atmaqdadır. Belə ki, Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Zəngəzur dəhlizinin yaradılması bu yöndə görülən ən mühüm işlərdəndir.

# Fərman və sərəncamlar

*Aqil Muxtar oğlu Şirinov Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilib. Prezident İlham Əliyev bununla bağlı mayın 12-də Sərəncam imzalayıb.*

*"İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 mart 2018-ci il tarixli Sərəncamında dəyişiklik edilib. Bu barədə Prezident İlham Əliyev mayın 12-də Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev mayın 8-də Balakən rayonunun Heydər Əliyev parkında sərnişin kanat yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev mayın 7-də sənaye parklarının bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisi ilə təchizatına dair əlavə tədbirlər haqqında Fərman imzalayıb.*


Hədəfimiz vətəndaş məmnunluğudur...*2*

Onlar ən yaxşılardandır.........................*2*

Doğru seçimin ünvanı...........................*3*

İzimiz qalan yerlər.................................*4*

# Respublika Xəbərləri

### Prezidentdən növbəti müjdə

Şuşanı Xankəndi ilə birləşdirən "Kanat yolu" layihəsi üzərində iş gedir. Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı belə deyib. Dövlət başçısı bildirib ki, Laçın şəhərində kanat yolunun tikintisinə bu il başlanılacaq. Kəlbəcərdə də belə layihə var. Bu, həm turizm baxımından, həm insanların rahat gediş-gəlişi üçün çox gözəl bir vasitə olacaq.

### XİN bəyanat yaydı

Azərbaycan Xarici İşlər Nazirliyi PKK terror təşkilatının özünü ləğv etməsi barədə bəyanat yayıb. Bildirilib ki, qardaş Türkiyə rəhbərliyini terrorizmin kökünün kəsilməsi, təhlükəsizliyin gücləndirilməsi və sabitliyin təşviqi istiqamətindəki sarsılmaz öhdəliyinə görə alqışlayırıq.

### Yeni qanun layihəsi

Azərbaycan Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası"na qoşulacaq. Bu, Milli Məclisdə İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatının müzakirəsi zamanı bildirilib. Qeyd olunub ki, bununla əlaqədar hazırlanmış qanun layihəsi hazırda razılaşma mərhələsindədir.

### Fəaliyyət planı hazırdır

"Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün yeni Milli Fəaliyyət Planı"nın layihəsi hazırdır. DİN-in İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Həzi Aslanov Milli Məclisin müvafiq komitələrinin iclasında belə deyib. O qeyd edib ki, sənəd rəy və təkliflərin alınması üçün müvafiq qurumlara göndərilib.

### Müdafiə sənayesidə əməkdaşlıq

Müdafiə Sənayesi Nazirliyi Aparatının rəhbəri Samir Ağabalayev mayın 12-də Özbəkistan Müdafiə Sənayesi Agentliyinin nümayəndə heyəti ilə görüşüb. Nazirlikdən verilən məlumata görə, görüşdə müdafiə sənayesi sahəsində münasibətlərin tənzimlənməsi üzrə mövcud qanunvericilik təcrübəsi müzakirə edilib.

### Şuşada yeni binalar tikiləcək

Şuşa şəhərində dördüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 16 binanın inşası nəzərdə tutulub. Kompleksin ümumi sahəsi 6,2 hektardır. Ümumilikdə yaşayış kompleksində 274 mənzilin inşası planlaşdırılır. Binalarda bir, iki, üç, dörd və beşotaqlı mənzillər olacaq. İndiyədək Şuşada 450 mənzildən ibarət 23 bina sakinlərin istifadəsinə verilib.

### Özünüməşğulluq proqramı icra edilir

Bu ilin yanvar-aprel aylarında 148 min 881 şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə edilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb. Bildirilib ki, onlardan 44,1 min şəxs münasib işlərlə təmin olunub, 5,4 min nəfər isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.

### Xocalı aydınlığa çıxır

Ağdam, Əsgəran, Xocalı və Xankəndi arasında daxili elektrik təchizatı sxemi yaradılacaq. 3200 KVA gücündə "Xocalı" yarımstansiyası bir neçə sahəni fasiləsiz elektrik enerjisilə təmin edəcək. Yarımstansiya Xocalıda yeni yaşayış komplekslərinin, həmçinin kənd təsərrüfatı, turizm obyektlərinin, xüsusilə də sosial-iqtisadi təyinatlı müxtəlif sahələri fasiləsiz elektrik enerjisilə təmin edəcək.

### Qarabağda yeni iş yerləri açılır

Xocalı rayonunun Xanabad kəndində iri heyvandarlıq kompleksi fəaliyyətə başlayıb. Burada yerləşən heyvandarlıq kompleksində 55 nəfər daimi işlə təmin edilib. Kompleksdə ətlik-südlük istiqamətli iribuynuzlu heyvanlar saxlanılır. Kompleks illik 100 ton ət, 2 min ton süd istehsalı gücünə malikdir. Gələcəkdə istehsal gücünün artırılması ilə iş yerlərinin sayının 100-ə çatdırılması nəzərdə tutulur.

### Ağdam nəqliyyat qovşağı...

Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərəcək. Yenidən inşa edilən Ağdam dəmir yolu gün ərzində 800 - 1 000, avtovağzal isə 1 300 - 1 500 sərnişinə xidmət edəcək. Hər iki sərnişindaşıma kompleksi müasir və yüksək tələblərə tam cavab verəcək səviyyədədir.

# Hədəfimiz vətəndaş məmnunluğudur

## Hər bir müraciətə həssaslıqla yanaşmaq əsas tələbdir

**Yaşadığımız yüzillik texniki tərəqqi əsridir. Dövrümüzdə texnologiya sürətlə inkişaf edir, az qala hər gün bu sahədə bir yeniliyin şahidi oluruq. Artıq istənilən məlumatla, xəbərlə mobil telefon üzərindən anındaca tanış olmaq mümkündür. Hər bir sosial media istifadəçisi öz dünyagörüşünə görə "xəbər istehsalçısı"na belə çevrilə bilir. Ancaq bu, həm də doğru olmayan məlumatların çox asanlıqla yayılması deməkdir.**

### Polis - media əlaqələri diqqətdə saxlanılır

İctimaiyyət qarşısında hesabatlılıq kimi bir vəzifəsi olan polisin media ilə münasibətləri də məhz vətəndaşı doğru informasiya ilə təmin etmək prinsipi üzərində qurulub. Müasir informasiya texnologiyalarının inkişafı ilə ortaya çıxan yeni kriminal təhdidlərin zərərsizləşdirilməsi üçün polisin elə müasir metodlardan istifadə etməklə maarifləndirmə missiyasını həyata keçirməsi bu münasibətlərin ictimai faydasını bir qədər də artırır. Təsadüfi deyil ki, Nazirliyin son Kollegiya iclasında gündəlikdə olan məsələlərdən biri polis - media əlaqələri ilə bağlı idi, bu isə mövzunun xüsusi ilə diqqətdə saxlanıldığını göstərən önəmli faktdır.

Cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin qarşısının alınması sahəsində mediada təbliğat işinin aparılmasının effektivliyini kibertalama cinayətlərilə mübarizədə aydın görə bilirik. Bu yaxınlarda ictimai müzakirələrin birində kibertalama cinayətləri ilə aparılan mübarizənin nəticə verdiyinə diqqət çəkildi. Verilən məlumatdan belə aydın oldu ki, bu gün onlayn dələduzluq hallarının sayı gündəlik 10-20 arasındadırsa, əvvəllər bu rəqəm 50 civarında olub. Bu, həm də media resurslarında aparılan məlumatlandırma-təbliğat işinin uğuru kimi qiymətləndirilə bilər.

Ümumiyyətlə, daxili işlər orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması, kriminal vəziyyət haqda gündəlik informasiya təmini bu vacib dövlət strukturunun cəmiyyət qarşısında hesabatlılığa, daşıdığı məsuliyyətə nə qədər böyük önəm verdiyini göstərir. Mütəmadi olaraq polisin xidmətinin nəticəsi ilə cəmiyyəti tanış etməyin, məlumat verməyin özü belə vətəndaşda yaranacaq əlavə sualı əvvəlcədən cavablandırmaq deməkdir.

Vətəndaşların müraciətlərinə adekvat reaksiya verilməsi, operativ cavablandırılması ilə seçilən Daxili İşlər Nazirliyi, son kollegiyada qeyd edildiyi kimi, mediaya ən açıq qurumlardan biridir. Bu gün nəinki polisin fəaliyyətilə əlaqəli, polisə aid olmayan ən müxtəlif problemlərlə bağlı istənilən şəxs sosial şəbəkələrdəki səhifələrimizə yazıb kömək istəyir. Nazirliyin çoxminli auditoriyaya malik instaqram, feysbuk, teleqram, yutub platformalarından gün ərzində müxtəlif məzmunlu yüzlərlə müraciət daxil olur ki, onların cavablandırılması, aidiyyəti üzrə yönləndirilməsi həyata keçirilir.

### DİN mediaya ən açıq qurumlardan biridir

Bu ilin təkcə aprel ayı ərzində DİN-in sosial şəbəkələrdəki səhifələrinin mesaj bölməsinə 3403 müraciət daxil olub. Bu müraciətlərin əksəriyyəti operativ şəkildə cavablandırılıb. Vətəndaş problemini çatdırmaqda sosial medianın çevikliyindən istifadə etdiyi kimi, polis də operativ reaksiya verməklə sürətli həll yolu ilə vətəndaşın məmnuniyyətini qazanır. Təsadüfi deyil ki, belə müraciətlərin bir qismi elə polisə ünvanlanan təşəkkürlərdən, xidmətin səviyyəsindən razılıq bildirən fikirlərdən ibarətdir. Müraciət və daxil olan sualları təhlil etdikdə məlum olur ki, onlar ən müxtəlif məzmunları əhatə edir. Buraya daxili işlər orqanları əməkdaşlarının fəaliyyəti, istintaq və təhqiqat aparatı ilə bağlı, DYP-nin fəaliyyətinə dair, məişət və digər sosial xarakterli məsələlər, mülkiyyət əleyhinə törədilən cinayətlər, ictimai təhlükəsizlik məsələləri, şəxsiyyət əleyhinə törədilən cinayətlər, qanunvericiliklə bağlı suallar, o cümlədən digər məsələlər aiddir.

Sayını qeyd etdiyimiz hər bir müraciət polislə vətəndaş arasında birbaşa qurulan körpüdür. Biz hələ vətəndaş müraciətlərinə qanunvericiliklə müəyyən edilmiş digər hallarda baxılması qaydaları çərçivəsində görülən işlərdən bəhs etmədik. Bununla, sadəcə olaraq, vətəndaşla üz-üzə, şəxsən görüşlərdən əlavə, media resursları üzərindən heç bir maneə olmadan polisə çıxış imkanı olduğunu göstərən fakta diqqət çəkmək istədik.

*R.Baxşəlioğlu*

# Onlar ən yaxşılardandır

## Bilik və bacarıqları ilə seçilən əməkdaşlar təqdir olunur

**Ömrünü cinayətkarlıqla mübarizəyə həsr edən polis üçün peşəkarlıq çox önəmlidir. Hətta bir çox halda həyati dəyər kəsb edir bu. Yəni polis əməkdaşı peşəkar olmağa, bir növ, məcburdur. Bilik və bacarığı təkmilləşdirmək, özünü sınamaq və nəhayət, sübut etmək bu istiqamətdə gedilləcək uzun yolun başlanğıcı sayıla bilər.**

Bu baxımdan hər il daxili işlər orqanlarının əməkdaşları arasında keçirilən ən yaxşı gənc əməkdaş müsabiqəsinin peşəkarlıq keyfiyyətlərini artırmaq yönündə çox əhəmiyyətli mərhələ olduğunu söyləyə bilərik. Bu il də Nazirliyin müvafiq komissiyası tərəfindən keçirilən müsabiqədə iştirakçıların xidməti hazırlığı test-imtahan üsulu ilə, eləcə də fiziki bacarıqları və silahsız özünümüdafiə qabiliyyətləri yoxlanılaraq qiymətləndirilib. DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinin əməkdaşı polis mayoru Gündüz Zeynalov builki müsabiqədə birinci yer tutan təhqiqatçılardandır.

> *Ən yaxşı əməkdaş meyarı həm də gündəlik vəzifə borcunun dəqiq yerinə yetirilməsi ilə üzə çıxır*

2016-cı ildə Polis Akademiyasını bitirəndən sonra G. Zeynalov xidməti fəaliyyətinə Binəqədi RPİ 6-cı PB-yə əməliyyat müvəkkili təyin olunmaqla başlayıb. Daha sonra 4-cü BP-də təhqiqatçı vəzifəsində çalışıb. Tutduğu vəzifədə isə 2019-cu ildən xidmət edir.

Təhqiqat işini ədalətə açılan ilkin qapı hesab edən ən yaxşı gənc təhqiqatçımız müsabiqə barədə fikirlərini bizimlə bölüşərkən qeyd etdi ki, orada iştirak etmək onun üçün böyük məsuliyyət demək idi. Bununla o, həm öz bilik və bacarığını sərgiləməli, həm də təmsil etdiyi Təhqiqat İdarəsinin rəhbərliyinin etimadını doğrultmağa çalışmalıydı. Respublika üzrə ən yaxşı əməkdaşlardan biri olması onu bundan sonra daha məsuliyyətli olmağa sövq edəcəyini deyir. İndi onun qarşısında bu adı qoruyub saxlamaqdan ötrü daha əzmlə xidmət etmək, verilən göstəriş və tapşırıqları, qanunun tələblərini daha dəqiq icra etmək vəzifəsi dayanır. Onun sözlərinə görə, yaxşı əməkdaş adı həm də gündəlik vəzifə borcunun dəqiq yerinə yetirilməsi ilə üzə çıxır. Bir təhqiqatçı olaraq vətəndaşların hüquq və azadlıqlarının keşiyində dayanmaq, onların şikayətinə səbəb olan halları aradan qaldırmaq və bununla da vətəndaş məmnuniyyətini təmin etmək bu meyarı tamamlayır.

Müsabiqənin nəticələrinə görə növbəti ən yaxşı gənc təhqiqatçılardan biri Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşı polis kapitanı Azər Qəmbərlidir. O, Biləsuvar rayonunun 4 nömrəli orta məktəbini bitirib, Milli Avasiya Akademiyasının hüquq fakültəsinə qəbul olub. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra 2019-cu ildə imtahan yolu ilə ədliyyə orqanlarında işə başlayıb. Təxminən bir il burada işlədikdən sonra çoxdan arzusunda olduğu polis olmaq istəyini gerçəkləşdirib. 2020-ci ildə daxili işlər nazirinin əmri ilə A.Qəmbərli Biləsuvar Rayon Polis Şöbəsinin sahə rəisi vəzifəsinə təyin edilib.

Gənc təhqiqatçının sözlərinə görə, hazırlıqlı gənc polis zabitləri arasından seçilmək, respublika üzrə ən yaxşılardan biri olmaq onun üçün qürurvericidir.

> *Hazırlıqlı gənc polis zabitləri arasından seçilmək qürurvericidir*

Bütövlükdə isə polis əməkdaşlarının belə bir müsabiqə öz-özlüyündə təqdirəlayiq haldır. Çünki bununla həm əməkdaş öz potensialını öyrənmiş olur, həm də daxili işlər orqanları özünün perspektivli əməkdaşlarını üzə çıxarır. "Bu müsabiqəni peşəkar polis əməkdaşı olmağın önəmli bir mərhələsi sayıram. Nə qədər hazırlıqlı olarıqsa, vətəndaşların qanuni maraqlarını, can və əmlak güvənliyini, hüquq və azadlıqlarını da bir o qədər yaxşı qoruya bilərik", - deyə müsahibimiz fikrini yekunlaşdırdı.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Vətəndaş görür də, qiymətləndirir də

## Məktubların xidmətimizdən məmnunluğun ifadəsidir

Vətəndaş Yeganə Həsənova teleqramında övladı ilə bağlı Nərimanov Rayon Polis İdarəsinə etdiyi müraciətə həssas yanaşıldığını və operativ tədbirlərin həyata keçirildiyini qeyd edir. O, göstərilən diqqətə və operativliyə görə DİN rəhbərliyinə və Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.



Bakı şəhər sakini Elnarə Məmmədova DİN-in "Instagram" səhifəsinə ünvanladığı mesajında müraciətinə operativ baxıldığını, Pirallahı Rayon Polis İdarəsi tərəfindən qısa müddətdə araşdırma aparılaraq müvafiq tədbirlərin görüldüyünü və müraciətinin müsbət həll olunduğunu qeyd edir.

E.Məmmədova müraciətinə həssas yanaşıldığına və həyata keçirilən operativ tədbirlərə görə DİN rəhbərliyinə və Pirallahı RPİ-nin əməkdaşlarına təşəkkürünü bildirir.

*"Polis"*

# Maarifləndirmək missiyamız

## Polis narkomaniyaya qarşı profilaktik tədbirlərini davam etdirir

Suraxanı RPİ-nin əməkdaşları rayon ərazisində yerləşən 290 nömrəli tam orta məktəbdə şagirdlərlə görüşüblər.

"Narkomaniyaya yox deyək" adlı maarifləndirici tədbirdə yuxarı sinif şagirdləri, valideynlər və pedoqoji heyət qarşısında çıxış edən şəxsi heyətlə iş üzrə rəis köməkçisi polis polkovnik leytenantı Elmir Zalov və bölmə rəisi Əfqan Ağayev müasir çağın bəlasına çevrilən narkomaniyadan bəhs ediblər.

Qeyd edilib ki, narkotik maddələrin yayılmasını önləmək məqsədilə keçirilən tədbirlərdə effektliyə nail olmaq üçün hər bir vətəndaş hüquq mühafizə orqanlarına öz köməyini göstərməlidir. Xüsusən gənclərin aktivliyi narkomaniyanın qarşısını almaqda çox təsirli ola bilər.

Həmçinin tədbir zamanı daxili işlər orqanlarında xidmət etmək həvəsində olan məktəblilərə Polis Akademiyasına kursant qəbulu qaydaları ilə bağlı ətraflı məlumatlar verilib, Akademiyada təhsilin üstünlükləri barədə çıxışlar edilib.



Paytaxtın Nərimanov rayonunda 178 nömrəli məktəbdə də eyni mövzuda tədbir keçirilib. Rayon Polis İdarəsinin təşkilatçılığı ilə keçirilən görüşdə çıxış edən DİN Mətbuat Xidmətinin rəis müavini polis polkovniki Hafiz Təmirov və Nərimanov RPİ Veteranlar Şurasının sədr müavini Eyvaz Nurməmmədov ölkəmizdə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olanlara qarşı aparılan qətiyyətli mübarizə tədbirlərindən danışıblar.

Eyni zamanda, tədbir iştirakçılarına kiberdələduzluq və bank kartlarından oğurluq halları ilə üzləşməmək üçün ehtiyatlı olmaq, heç bir halda bank və digər şəxsi məlumatları qarşı tərəfə ötürməmək, tanımadıqları şəxslərdən gələn mesaj və bildirişləri açmamaq tövsiyə edilib.

Kürdəmir Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun S.Paşayev adına 6 saylı tam orta məktəbində "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Görüşdə RPŞ-nin rəis müavini polis polkovniki Anar Əliyev respublikamızda narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizə tədbirləri və əldə olunan nəticələr barədə məlumat verib. Bu cür maarifləndirmə tədbirlərinin keçirilməsinin mühüm əhəmiyyətə malik olduğunu bildirən rəis müavini, gənc nəslin sağlam böyüməsinin, valideynlərinin etimadını doğrultmasının və Vətənə layiqli övlad kimi yetişməsinin önəmindən danışıb.

Görüşdə RPŞ-nin əməkdaşları polis polkovnik-leytenantı Elman Bünyatov və polis baş leytenantı Gülşən Əhmədova iştirak edib. Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və narkotiklərin zərərlərini əks etdirən videoçarx nümayiş olunub. Qeyd edək ki, belə maarifləndirici görüşlər yerli polis şöbələrinin təşkilatçılığı ilə Masallının Viləş, Neftçalanın Aşağı Surra, Ucar rayonunun Rəstəcə, Salyanın Ərəbqardaşbəyli kənd orta məktəblərində və paytaxtın Qaradağ rayonunda yerləşən 233 nömrəli tam orta məktəbdə də keçirilib.

# Doğru seçimin ünvanı

## Yaradılan şərait təbliğatımızın təməlidir

DİN-in Polis Akademiyasının növbəti "Açıq qapı"sından keçmək imkanını bu dəfə Abşeron rayonu Xırdalan şəhərinin 2, 5, 7 və 9 nömrəli məktəblərinin 8-10-cu sinif şagirdləri qazanıblar.

Qonaqlar Akademiyada yaradılmış təhsil mühiti, o cümlədən tədris korpusları, kriminalistik şəhərcik, mühazirə zalları, "Məhkəmə zalı", "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, auditoriyalar, elektron kitabxana, kursant yeməkxanası, qapalı atıcılıq tiri və krossfit meydançası ilə tanış oldular. Məktəblilərə Polis Akademiyasının tarixi, kursantların maddi, sosial təminatları və burada təhsilin üstünlükləri barədə geniş məlumatlar verilib.



"Virtual Akademiya" platformasından istifadə edərək tədris müəssisəsi ilə tanış olmaq imkanı da şagirdlərin nəzərinə çatdırılıb.

# Mənəvi-psixoloji hazırlıq əsas şərtdir

## İdeoloji söhbətlər xidmətdə dönüş yaradır

Gənc polis əməkdaşlarının mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə DİN Şəxsi Heyətlə İş İdarəsinin təşkilatçılığı ilə tədbirlər davam etdirilir.

Bu istiqamətdə növbəti görüşlər A.Heydərov adına Sıravi və Kiçik Rəis heyəti hazırlayan məktəbdə, DİN NHİX-nə bilavasitə tabe olan "102" Xidmətizəng Mərkəzində və Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis taborunda keçirilib. Tədbirlərdə çıxış edən DİN-in Şəxsi Heyətlə İş İdarəsinin şöbə rəisi polis polkovnik-leytenantı Firdovsi Nəsirov və baş inspektor polis polkovniki Laçın Paşayev dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin



tarixin ən qüdrətli dövrünü yaşadığını, bunun ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi ilə öz təsdiqini tapdığını qeyd ediblər.

Görüşlərdə DİN-də üç ayın yekunlarına həsr olunmuş Kollegiya iclasında müzakirə mövzusu olan bir sıra aktual məsələlər, o cümlədən şəxsi heyətin xidmət zamanı və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına, xidməti intizama və qanunçuluğa əməl etməsinin vacibliyi əməkdaşların diqqətinə çatdırılıb.

Xüsusən polisin fəaliyyəti ilə bağlı sosial şəbəkələrdə mənfi rəyin formalaşmasının başlıca səbəbi olan halların yolverilməzliyi tədbir iştirakçılarına izah edilib. Bildirilib ki, əməkdaşların xidməti konfidensiallığı qorumaları rəhbərlik tərəfindən əsas tələb kimi diqqətdə saxlanılır. Görüşlər çərçivəsində həmçinin korrupsiya hallarına qarşı mübarizə ilə bağlı əməkdaşlarla söhbətlər aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Növbəti görüşlərin ardıcıllıqla paytaxtın və respublikanın digər rayonlarının polis orqanları və mühafizə hissələrində davam etdirilməsi nəzərdə tutulur.

# Polis əməkdaşları üçün təlim

## Maarifləndirmə tədbirləri regionlarda da keçiriləcək

İnsan Alverinə Qarşı Qeyri-Hökumət Təşkilatları Koalisiyasının təşkilatçılığı ilə mayın 6-da Sumqayıt Şəhər Polis İdarəsində "Uşaq əməyinin istismarı və onun müəyyən edilməsi" mövzusunda təlim təşkil olunub. Təlimin məqsədi uşaq hüquq-



larının müdafiəsi sahəsində çalışan hüquq-mühafizə orqanı əməkdaşlarına uşaq əməyinin istismarı hallarını tanımaq, qiymətləndirmək və onlara operativ müdaxilə etmək bacarıqlarının artırılmasıdır.

İnteraktiv formatda keçirilən təlimdə ekspertlər tərəfindən iştirakçılara uşaq əməyinin formaları, risk qrupları, istismarın hüquqi aspektləri, bu sahədə olan qanunvericilik və beynəlxalq öhdəliklər haqqında ətraflı məlumat verilib, real hallar üzərində praktiki təhlillər aparılıb.

# Onlar yaşasın deyə...

## Həmkarlarımız qan verdilər

"Talassemiyasız həyat naminə" proqram layihəsinə əsasən ölkəmizdə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkənlərə yardım məqsədilə keçirilən qanvermə aksiyalarında polis hər zaman həmrəylik nümayiş etdirib. Səhiyyə Nazirliyinin B.Eyvazov adına Respublika Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankının təşkilatçılığı və dəstəyi ilə Bakı Şəhər Baş Polis İdarəsinin də şəxsi heyəti qan verib, can yaşatmaq üçün səfərbər olublar.

Əvvəlcə xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun qan qrupu müəyyən olunub, onların səhhətində hər hansı bir problemin olub-olmaması yoxlanıldıqdan sonra qanvermə aksiyasına start verilib.

# Ötən ilin hesabatı dinlənilib

## Daxili İşlər Nazirliyi tərəfindən qurbanlara hüquqi və digər yardımlar edilib

Ötən il Azərbaycan vətəndaşları ilə bağlı insan alveri və məcburi əməklə bağlı olan cinayət işləri üzrə 91 insan alveri qurbanı (90-ı qadın, 1-i kişi) müəyyən edilib.

Bu fakt İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatında öz əksini tapıb. Sənəd parlamentin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında müzakirəyə çıxarılıb.

Hesabat dövründə insan alveri qurbanlarının müdafiəsi, bu istiqamətdə hüquqi, sosial-iqtisadi tədbirlərin məqsədyönlü icrası da diqqətdə saxlanılıb. Qurbanlardan 80 nəfərinin hər birinə 700 manat birdəfəlik müavinət ödənilib, 56 nəfəri müvəqqəti yaşaması üçün Daxili İşlər Nazirliyinin müvafiq sığınacağına yerləşdirilərək tibbi (HİV, AİDS, ginekoloji, terapevt), sosial, psixoloji, hüquqi və digər yardımlarla təmin edilib.

2024-cü ildə insan alveri qurbanlarının 18 nəfəri peşə kurslarına yönəldilib, 9 nəfəri işlə təmin edilib, 1 əcnəbi qurbanın repatriasiyasında, 9 qurbana şəxsiyyət vəsiqəsi və 11 qurbanın ünvanlı sosial yardım almasında, 2 uşaq qurbanın təhsilini davam etdirməsi üçün İnteqrasiya təlimli internat məktəbinə qəbul olunmasında köməklik edilib, 44 qurbanın ailəsinə qayıdışı təmin olunub.

# "Piyadalar, diqqətli olun!"

## Baş Dövlət Yol Polisi İdarəsi çağırış edir

Yol hərəkətinin ən müdafiəsiz iştirakçıları olan piyadaların iştirakı ilə baş verən qəzaların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə azalsa da, ümumilikdə bu sahədə qabaqlayıcı tədbirlərin görülməsinə hər zaman ehtiyac vardır.

Bu məqsədlə may ayının 12-dən 19-dək respublika ərazisində " Piyadalar, diqqətli olun!" şərti adı altında hərəkətin təhlükəsizliyi həftəliyi keçiriləcəkdir.

Tədbir çərçivəsində piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulması hallarına qarşı nəzarət-profilaktik tədbirlərin artırılması ilə yanaşı, əhali arasında təbliğat-təşviqat və maarifləndirmə işlərinin daha da gücləndirilməsi nəzərdə tutulur.

Baş Dövlət Yol Polisi İdarəsi bir daha piydaları diqqətli olmağa çağırır, eyni zamanda ictimai təsisatları, xüsusilə media subyektlərini sözügedən tədbir çərçivəsində birgə əməkdaşlığa dəvət edir.

# Polis tədbir gördü

## Moped və motosiklet sürücüləri saxlanıldı

Sumqayıt Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları tərəfindən yol hərəkəti təhlükəsizliyinin təmin olunması məqsədi ilə keçirilən növbəti tədbir zamanı yüksək səslə küçə və prospektlərdə hərəkət edərək şəhər sakinlərinin haqlı narazılığına səbəb olan motosiklet və moped sürücüləri saxlanılıblar. Texniki müayinə zamanı həmin nəqliyyat vasitələrinin bir çoxunun səsboğucularına sürücüləri tərəfindən qəsdən müdaxilə edildiyi aşkarlanıb. Yollarda təhlükəli manevrlər edərək qəza şəraiti yaradan həmin şəxslər barəsində inzibati tədbirlər görülüb.

# Təcrübə mübadiləsi

## Polis Akademiyasında interaktiv dərslər keçirilib

Polis Akademiyasında nəzəriyyə ilə təcrübənin vəhdəti prinsipi diqqət mərkəzində saxlanılır. Odur ki, Akademiyaya dəvət olunmuş təcrübəli mütəxəssislərin iştirakı ilə keçirilən mühazirə dərslərində kursantların nəzəri biliklərinin möhkəmləndirilməsi və təcrübədə tətbiq etmə bacarığının inkişaf etdirilməsinə xüsusi önəm verilir.

Bu günlərdə müxtəlif fənlər üzrə keçirilən interaktiv dərslərdə Bakı Dövlət Universitetinin dosenti Rəna Məmmədova "Ailənin və mənəvi həyatın sosiologiyası", Azərbaycan Dövlət İqtisad Universitetinin Xarici dillər departamentinin direktoru, dosent Aysel Xəlilova "Gündəlik ünsiyyət üçün əsas danışıq bacarıqları", jurnalist, siyasi elmlər üzrə fəlsəfə doktoru İradə İsak "Nitq Polisin nüfuzudur!" və s. mövzularda mühazirə oxuyublar.

Mühazirələrdə milli-mənəvi dəyərlərin qorunmasında ailənin əhəmiyyəti, ictimai münasibətlərin tənzimlənməsində elmin, təhsilin, mədəniyyətin və dinin rolu, ingilis dilinin mənimsənilməsində müasir dövrün tələblərinə cavab verən innovativ yanaşmalar və xarici dilin tədrisinin müxtəlif aspektləri, vətəndaşlarla münasibətdə polis əməkdaşlarının nitqi barədə geniş məlumatlar verilib.

Mütəxəssislərin iştirakı ilə keçirilən mühazirə dərsləri kursantlar tərəfindən böyük maraqla qarşılanıb, mövzular ətrafında müzakirələr aparılıb.

# İzimiz qalan yerlər

## Hər daşında adımız, tariximiz yaşayır

### Şirəqala kəndi

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində olan Şirəqala kəndi rayon mərkəzindən 20 km məsafədə, Abaran çayının sağ qolu üstündə, Duluçay çayının sahilində yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə, XIX əsrə aid rus mənbələrində qeyd edilmişdir.

Toponim "gil növü, mavi gil" mənasında işlənən şirə sözünə, "istehkam, müdafiə tikilisi", "həbsxana, zindan" mənasında işlənən qala sözünün qoşulması nəticəsində əmələ gəlmişdir.

Tarixi Mənbələrdə 1914-cü ildə burada 1172 nəfər azərbaycanlının yaşadığı göstərilir.

1918-ci ildə kənddə yaşayan azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş, İran və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir.Kənddə indi ermənilər yaşayır.



### Yuva kəndi

Yuva kəndi Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 3 km cənub-şərqdə, Gərni çayının sol sahilində, Gərni çayından ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Culfa yolunun üstündə, Araz çayının yaxınlığında yerləşir.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1828-1829-cu illərdə kənddə həm də İrandan köçürülmüş ermənilər yerləşdirilmiş və kənd həmin vaxtdan 1930-cu ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1930-cu illərdə isə kənd bütünlüklə erməniləşdirilmişdir.

“İrəvan əyalətinin icmal dəftəri”ndə (1728 il) Gərni nahiyəsinin Yuva kəndi kimi qeydə alınmış, kəndin Ağcaqışlaq kəndi yaxınlığında yerləşdiyi, dövlətin kənddən götürdüyü illik gəlirin 12.000 ağca olduğu göstərilmişdir.

Sonrakı mənbələrdə də kəndin adı Yuva şəklindədir. Heç şübhəsiz, Yuva oykonimi Səlcuq türklərinin Yivə/Yuva tayfasının adını əks etdirir. Həmin tayfa da uyğur filosofu Mahmud Kaşğarlının (1028-1101) özünün türk ifadələri lüğətində göstərdiyi 22 Oğuz boyundan birini təşkil edir. Səlcuqlar dövründə xeyli fəal olan bu tayfa Mahmud Kaşğarlı tərəfindən Yuva,Yıva,İva,Yafa, Avva formalarında yazıya alınmışdır. Türk tədqiqatçısı Faruq Sümər “Oğuzlar” əsərində Yıva tayfasına geniş yer ayırmışdır. Tədqiqatçının fikrinə görə, Yıvalara aid ən qədim məlumat 1158-ci ildən başlayır. Yıvalar bu tarixdən Həmədanın qərbində həddən artıq sıx yaşayırmışlar. Onların bu yerlərdə 1130-cu illərdə Sır-Dərjadan Əfşar və Salğurlarla birlikdə gəldikləri ehtimal olunur. XII yazılı hadisələrdən bəhs edən mənbələr təsdiqləyir ki, Azərbaycan Atabəylər dövlətinin himayəsində olan Yıvalar Atabəy Şəmsəddin Eldənizin daim qayğısını hiss etmişlər. Hətta Eldəniz onları xarici işğalçılardan müdafiə etmək üçün xəlifəyə yaxın ordu qüvvələri ilə döyüşdən də çəkinməmişdir. Görünür, elə həmin vaxtlardan İrəvan çökəkliyində Yıva türk tayfaları məskunlaşmışlar.

İndi Türkiyə ərazisində də Yıva tayfası geniş yayılmışdır. Faruq Sümər XVI yüzildə Anadoluda Yıva adlı 19 kənd qeydə almışdır.

XVI yüzildə Şimali Azərbaycanın Zəyəm nahiyəsində Yuvalı-Fəxralı elinin yaşaması barədə məlumat var. XVIII yüzildə İrəvan əyalətinin Karbi nahiyəsində də Yuva adlı kənd mövcud olmuşdur.

Rus tarixçisi İvan Şopen (1798-1870) Gərnibasar mahalının Yuva kəndində 5 təsərrüfatda 33 nəfər (18 kişi, 15 qadın) Azərbaycan türkü, 51 təsərrüfatda 220 nəfər (123 kişi, 97 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alındığını bildirmişdir.

1873-cü ilin statistikasında kənd əhalisi xeyli artaraq 29 təsərrüfatda 186 nəfər (99 kişi, 87 qadın) Azərbaycan türkü, 179 təsərrüfatda 1.215 nəfər (642 kişi, 573 qadın) erməni qeydə alınmışdır. Kənddə gəlmə ermənilərin sayı artdıqca yerli azərbaycanlıların sayı azalmış, gəlmələr yerliləri sıxışdırıb kənddən çıxarmışlar. Ona görə də kənddə 1905-ci ildə cəmi 12 nəfər azərbaycanlı qalmışdır. Şübhəsiz ki, azərbaycanlıların bu etnik təmizlənməsində 1905-ci il soyqırımının da böyük rolu olmuşdur. 1918-ci ildə Azərbaycanlıların növbəti soyqırımı zamanı isə kəndin bütün müsəlman əhalisi qovulub kənddən çıxarılmış, kənd xüsusilə Vedibasar mahalına dönə-dönə hücum edən erməni-daşnak birləşmələrinin hərbi dayaq nöqtəsi olmuşdur. Həmin toqquşmalar zamanı kənd dəfələrlə güllə-mərmi yağışı altında qalmış, dağıdılmışdır. 1950-ci il aprelin 19-da kəndin Yuva adı dəyişdirilərək erməni daşnak birkəsəni Stepan Şaumyanın şərəfinə Şaumyan qoyulmuşdur.

# Bürünc medal qazandı

## Polis əməkdaşı dünya üçüncüsü oldu

Mayın 10-da Almaniyanın Leipziq şəhərində IFK Kyokuşin karate üzrə 7-ci dünya çempionatı keçirilib.






Çempionatda dəfələrlə beynəlxalq yarışların qalibi və iştirakçısı BŞBPİ-nin Əməliyyat və Statistik İnformasiya İdarəsinin əməkdaşı polis serjantı Solmaz Zeynallı 65 kiloqram çəki dərəcəsində Qazaxıstan və Polşa idmançılarını mədalsız qoyub.

Həmkarımız yarımfinalda isveçrəli idmançı ilə üzbəüz gəlsə də bu qarşılaşmadan məğlub ayırılıb.

S.Zeynallı Dünya çempionatında 3-cü yerə çıxaraq bürüc medalın sahibi olub.

Xatırladaq ki, idmançının qardaşı kapitan Tural Zeynalov Vətən müharibəsində qəhrəmancasına həlak olub.

# Polislər yarışdılar

## Silahsız özünümüdafiə bacarıqlarını nümayiş etdirdilər

DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə Masallı Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibəti ilə polis əməkdaşları arasında silahsız özünü müdafiə üzrə DİN-in çempionatı keçirilib.



Tədbirdə DİN-in İdman Cəmiyyətinin əməkdaşları, Rayon Polis Şöbəsinin rəhbərliyi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edən qəhrəman oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət Himni səsləndirilib.

Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin siyasi böhranları aradan qaldırmaqla yanaşı, o çətin şəraitdə idmanı ümummilli hərakata çevirmək üçün bütün səylərini səfərbər etməsindən, dövlət idarəçilik sistemində gənclərin irəli çəkilməsindən, Azərbaycan gəncliyinə cəmiyyətin hərəkətverici qüvvəsi kimi inandığından söhbət açan tədbir iştirakçıları bu gün əldə olunan uğurların təməlində məhz bunun dayandığını diqqətə çatdırıb, yarış iştirakçılarına uğurlar arzulayıblar.

Daha sonra yarışa start verilib.

Yarışda bölgələr üzrə 18 şəhər və rayon polis şöbəsinin əməkdaşları mübarizə aparıb. Silahsız özünü müdafiə və əlbəyaxa döyüş növlərində gücünü sınayan asayiş keşikçilərinin çempionatında Şirvan Şəhər Polis Şöbəsinin komandasının əməkdaşları hamıdan güclü və çevik olduqlarını sübut ediblər. Beləliklə, medal sayına görə (2-i qızıl, 2-i gümüş, 2-i bürünc medal) digər polis şöbələrini qabaqlayan Şirvan ŞPŞ-nin əməkdaşları komanda hesabında 1-ci yeri tutublar. Qaliblərə medal, diplom və qiymətli xatirə hədiyyələri təqdim edilib.

# Qanadlı rabitə

## Müharibədə onların rolu əvəzsiz idi

**İkinci dünya müharibəsi milyonlarla insanın ölümünə yol açsa da, ondan illər əvvəl olmuş Birinci dünya müharibəsinin dəhşətlərindən bu gün də bəhs olunur.**

Müharibələr həm də texnoloji yeniliklərin sınaq meydanı olub. Bəzən insanın güvəndiyi texniki vasitələr onun ümidlərini doğrultmayıb və “köhnə dostlar”ın köməyinə ehtiyac duyulub.

Cəbhə bölgələrindən məlumatların sürətli və təhlükəsiz şəkildə çatdırılması üçün göyərçinlərə etibar edilməsi onların üstünlüyünü yenidən gözlər önünə sərir. Çünki göyərçinlər təxminən 60 mil/saat sürətlə uça bilirdilər və bu, onları digər rabitə vasitələrindən üstün edirdi. Məsələn, 1917-ci ildə Messines döyüşündə istifadə olunan göyərçinlərin 95%-i göndərilən mesajları uğurla çatdırmışdı.

### Mobil göyərçin çardaqları və daşıma sistemi

Göyərçinlərin effektiv istifadəsi üçün mobil çardaqlar yaradılmışdı. Bu çardaqlar xüsusi təchiz olunmuş avtomobillərdə yerləşdirilir və cəbhə bölgələrinə yaxın yerlərdə qurulurdu. Göyərçinlər əsgərlər tərəfindən xüsusi qutularda cəbhəyə daşınır və oradan mesajlarla birlikdə buraxılırdı. Bu sistem xüsusilə düşmən tərəfindən rabitə xətlərinin kəsildiyi hallarda məlumatların çatdırılmasında mühüm rol oynayırdı.

### Qəhrəman göyərçinlər: Cher Ami (əziz dost) və Le Valliant (igid)

**Cher Ami** (Şer) Birinci Dünya müharibəsi dövründə Amerika əsgərləri üçün rabitəni təmin edən 200 min göyərçindən sadəcə biri idi. Şer minlərlə həyati mesaj daşıyaraq yüz minlərlə əsgəri ölümdən xilas etmişdi. O, 3 oktyabr 1918-ci ildə baş vermiş Arqonne döyüşündə isə əsl qəhrəmanlıq nümunəsi göstərmişdi.

Həmin döyüşdə 500 amerikalı əsgər çoxsaylı alman qüvvələri tərəfindən mühasirəyə alınıb, tələyə salınmışdı. Getdikcə yemək və su tükənmiş, sursat bitmiş, ümidlər də yox olmaq üzrə idi. Bir müddət daha mühasirəyə tab gətirmək, hətta fürsət düşdüyü anda qurtulmaq şansı var idi. Lakin bədbəxtlik onda idi ki, amerikalıların müttəfiqləri olan ingilis və fransızlar alman əsgərlərinin mövqelərini deyil, yanlış koordinat səbəbindən mühasirədəki amerikalı əsgərləri



güclü bombardman edirdilər.

Öz müttəfiqlərinin atəşi ilə xeyli itki verməyş amerikalı əsgərlərin yeganə ümidi poçt göyərçinlərinin “stop” mesajı ilə oraya göndərmək idi. Ancaq havaya qalxan göyərçinlər dərhal yaxınlıqdakı alman əsgərləri tərəfindən vurulurdu. Sağ qalan sonuncu göyərçin Şer idi. Amerikalı əsgərlərin həyatı bu göyərçinin qanadlarından asılıydı və son ümidlə göyə buraxılmışdı.

Göyərçin öz qanadında belə bir mesaj daşıyırdı:

“276.4 paralelindəyik. Öz müttəfiqlərinizə atəş açırsız. Allah xatirinə, dayandırın!”.

Şer digər göyərçinlər kimi göyə qalxarkən düşmən atəşinə məruz qaldı. Lakin qəhrəman quş yaralı halda uçmağa davam etdi və lazım olan məntəqəyə qədər getməyi bacardı. Şeri qanı axa-axa 40 kilometr məsafəni uçmuşdu. Müttəfiqlərin mövqeyinə çatdığı zaman bədəni al qan içində idi. Bir gözü çıxmış, ayağının biri isə qopmuşdu..

Amma göyərçin əsgərlərin son ümidi olduğunu sanki dərk edərək öz missiyasını sonadək icra etmişdi.

Nəhayət mesaj alınmış, top atəşi dayanmış və əlavə birlik göndərilməklə sağ qalan 194 amerikalı əsgərin həyatı xilas edilmişdi. Təbii ki, bu əməliyyat poçt göyərçini - qəhrəman Şerinin fədakarlığı sayəsində baş vermişdi...

Qəzadan sonra Şerinin itirdiyi ayağı taxta, protez ayaqla əvəz edildi və qəhrəman göyərçin həyatını bir il də “taxta ayaqla” davam etdirdi. Ölümündən sonra Şeriyə abidə də ucaldıldı, hətta barəsində film çəkildi, əsərlər, romanlar yazıldı... Və tarix əziz dost adlandırılan göyərçini heç vaxt unutmadı...

**Le Valliant** ( Valyant) Birinci Dünya Müharibəsi zamanı Fransız Ordusunun istifadə etdiyi qəhrəman göyərçinlərdəndir. Onun hekayəsi xüsusilə 1916-cı ildə Verdun döyüşündə Fort Vaux qalasında baş verən hadisələrlə bağlıdır.

1916-cı ilin iyun ayında Fort Vaux qalası alman qüvvələri tərəfindən mühasirəyə alındı. Qalanın komandiri Sylvain Raynal, telefon xətlərinin kəsilməsi səbəbindən yalnız göyərçinlərlə əlaqə saxlaya bilirdi. Raynalın sonuncu göyərçini olan Valyant 4 iyun 1916-cı ildə ağır qaz hücumları və düşmən atəşi altında yardım çağırışı ilə göndərildi. Mesajda belə yazmışdı: “Biz hələ də müqavimət göstəririk, lakin qaz və tüstü hücumu altındayıq. Təcili yardım zəruridir... Bu mənim sonuncu göyərçinimdir”...

Valyant ağır yaralanmasına baxmayaraq mesajı Verdun sitadelindəki dovecot-a çatdırdı və orada can verdi. Onun bu fədakarlığı nəticəsində beş yardım dəstəsi Raynalın köməyinə göndərildi. Lakin su və sursatın tükənməsi səbəbindən Raynal 7 iyun 1916-cı ildə təslim olmaq məcburiyyətində qaldı.

Valyant Fransa tərəfindən “Legion d'honneur” (Şərəf Legionu) ordeni ilə təltif edilmiş yeganə göyərçindir. O, həmçinin “Mort pour la France” (Fransa uğrunda həlak olmuş) statusu ilə rəsmi olaraq tanınmışdır. Valyantın cəsədi doldurularaq Paris yaxınlığındakı Mont Valerien Hərbi Göyərçin Muzeyində sərgilənir. Fort Vaux qalasının həyətində igid adlandırılan göyərçinin şərəfinə xatirə lövhəsi yerləşdirilmişdir.

*Aytən Tahirova*
*polis kapitanı*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik